UOT 821.512.161

# TARIK BUĞRANIN "KÜÇÜK AĞA" ROMANINDA QƏHRƏMANLARIN MƏNƏVİ TƏKAMÜLÜ

**Arzu DADAŞOVA***

***Açar sözlər:*** *Tarık, Buğra,türk, ədəbiyyat, tarixi, roman.*

## Giriş

Ədəbiyyat aləminə hekayə janrı ilə qədəm qoyan Tarık Buğra şeir, roman, pyes, səyahətnamə və s. janrda yazdığı əsərləri ilə yaşadığı dövrün ən çox oxunan, müzakirə olunan, haqqında yazılar yazılan yazıçılarından olmuşdur. Tarık Buğra yaradıcılığa "Kekik Kokusu" hekayəsi ilə başlasa da, onu ədəbiyyat aləminə tanıdan "Oğlum" hekayəsi olmuşdur. Yaradıcılığa hekayə ilə başlayan yazıçı romanları ilə daha çox məşhurlaşmışdır. Oxucu onu sadəcə roman yazarı olaraq deyil, gənclik illərində şeirlər yazan, həyatının müəyyən dövründə jurnalistik fəaliyyətlə məşğul olan, maraqlı pyeslər və hekayələr müəllifi olaraq da tanımışdır. Hələ kiçik yaşlarından ədəbiyyata xüsusi həvəsi olan yazıçı atasının kitabxanasındakı "Mesnevî, Tarih-i Cevdet, Şerâre, Safahat, Piyâle ve Rübab-ı Şikeste" kimi dövrün məşhur kitablarına böyük maraq göstərmişdir. Ona ədəbiyyat zövqünü aşılayan valideynləri olmuşdur.Valideynləri kiçik Buğranın ilk müəllimləri və yol göstəriciləri olmuşlar. Hələ uşaq yaşlarında anasının Yunus Əmrədən ona oxuduğu şeirlər və dinlətdiyi ilahilərin onun böyüməsi, həyatı dərk etməsində böyük rolu olmuşdur.

Buğranın ədəbiyyata marağı hələ üçüncü sinifdə oxuyarkən başlamışdır. O, "Çocuk Dünyası" (Uşaq Dünyası) jurnalının hədiyyəli tapmacasını doğru cavablandıraraq yarışın qalibi olmuş, hədiyyə olaraq isə ona X.Ə.Adıvarın "Vurun Kahpeye, Ateşten Gömlek", F.R.Atayın "Ateş ve Güneş", R.N.Güntəkinin "Yeşil Gece", R.E.Ünaydının "Damla Damla" kitabları və iki tərcümə kitabı "Monte Kristo Kontu" ilə "Arı Mayanın Macəraları" kitabları göndərilmişdir. Sözsüz ki, bu kitablar onun ədəbiyyata olan marağının daha da artmasına səbəb olmuşdur. Bundan başqa yuxarıda da qeyd edildiyi kimi ona ədəbiyyat zövqünü aşılayan valideynləri olmuşdur. Uşaq ikən atasının kitabxanasında oxuduğu kitablar, anasından dinlədiyi Mövlana və Yunus Əmrə şeirləri onun ədəbiyyat zövqünün formalaşmasında mühüm rol oynamışdır.

"Yalnızlar" (1948) və "Siyah Kehribar" (1955) ilə roman janrına qədəm qoyan Buğra "Küçük Ağa" (1963) və "Küçük Ağa Ankarada" (1966) romanlarında Qurtuluş Savaşı hadisələrini qələmə alır. "İbişin rüyası" (1970) romanından sonra yazıçı "Firavun imanı" (1978) romanında Qurtuluş savaşından sonra türk siyasi və ictimai həyatında baş verən hadisələrdən bəhs edir. Yazıçının "Dönemeçte" (1980) romanında tək partiyalı rejimdən çox partiyalı rejimə keçid dövrü hadisələri öz əksini tapır. "Gençliğim eyvah" (1979) kitabında Türkiyəni 1980-ci ildə baş verən hərbi çevrilişə sürükləyən siyasi və sosial məsələləri dilə gətirmiş yazıçı "Yağmur Beklerken" (1981) romanında çox partiyalı rejimə keçid dövrü hadisələrini qələmə almışdır. Buğra "Dünyanın en pis sokağı" (1989) romanında ziyalı insanların böyük şəhərlərdə yaşam mübarizəsindən bəhs edərkən, "Osmancık" romanında Osmanlı dövlətinin qurulması və Osman Qazi xanın həyatından bəhs edir.

T.Buğra Türkiyə tarixində yaşanmış əhəmiyyətli hadisələri öz əsərlərində real gerçəklikləri ilə əks etdirən yazıçılardan olmuşdur. T.Buğra romanlarının əsasını insan və onun problemlərinin bədii əksi təşkil edir. Yazıçı müraciət etdiyi hər mövzuda milli-mənəvi dəyərləri ön plana çıxaran, öz inandığı doğrularını bütün çətinliklərə baxmayaraq sonuna qədər müdafiə edən yazıçılardan olmuşdur.

Türk ədəbiyyatında tarixi romanın ən gözəl örnəklərinin müəllifi kimi tanınan, vətən və millət aşiqi olan yazıçının "Küçük Ağa", "Küçük Ağa Ankarada", "Firavun imanı", "Osmancık" kimi

**AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*e-mail: d.arzu@bk.ru*

tarixi romanları da vardır. Bu romanlarda Osmanlı dövlətinin quruluş illəri, milli mübarizə dövrü, çox partiyalı rejimə keçid dövrü hadisələri öz əksini tapmışdır.

***T.Buğranın "Küçük Ağa" haqqında düşüncələri***

T.Buğraya türk roman tarixində sağlam və sarsılmaz yer açan əsəri "Küçük Ağa" romanıdır. Bu əsərdə və onun davamı olan "Küçük Ağa Ankarada" və "Firavun imanı" romanlarında Türkiyə tarixinin şanlı səhifələrindən olan Milli Mücadilə dövrü hadisələri qələmə alınmışdır. M.Kaplanın da qeyd etdiyi kimi şübhəsiz ki, İstiqlal Savaşı türk və dünya tarixinin ən vacib hadisələrindən biri sayılır. O çətin günlərdə türk xalqı müstəqilliyini qorumaq üçün kənd-kənd, şəhər-şəhər, ev-ev mübarizə aparmışdır. Buna baxmayaraq İstiqlal savaşından bəhs edən sənət əsərlərinin, romanların sayı o qədər də çox deyil. M. Kaplanın deyimi ilə desək M.K.Atatürkün "Nutuk"u və M.A.Ərsoyun İstiqlal marşı, Y.Kadrinin və Xalidə Ədibin əsərlərindən başqa bu tarixi canlı şəkildə bizə əks etdirən hansı əsərlər vardır? (5, s. 293)

Türkiyə və dünya tarixində İstiqlal Savaşı kimi önəmli tarixi hadisənin ədəbiyyatda bədii əksi heç də ürək açan deyil, bu mübarizədən bəhs edən romanların sayı çox azdır. Tarık Buğra "Küçük Ağa" əsəri ilə Milli Mücadilə dövrünün ən gözəl əsərlərindən birini qələmə almış olur və ilk dəfə olaraq oxucu Tarık Buğranın romanında Milli Mücadiləyə fərqli yöndən yanaşma görür. Digər qurtuluş savaşı romanlarından fərqli olaraq bu üç romanda ("Küçük Ağa", Küçük Ağa Ankarada" və "Firavun imanı") məsələlərə dövlətin rəsmi prizmasından deyil, sırf insan və millət yönündən baxılmış, qələmə alınmışdır. Hadisələr Ankara mərkəzli deyil, yazıçının doğulub böyüdüyü kiçik bir Anadolu qəsəbəsi olan Akşehir mərkəzli təsvir olunur. Tarık Buğra bu romanda tarixi yöndən Milli Mücadilədə insanın yeri, millətin yeri suallarının cavabını ortaya qoymağa, tarixi gerçəkliyi obyektivlik prizmasından əks etdirməyə çalışmışdır.

Tarık Buğra "Küçük Ağa" romanını yazmağı planlaşdırarkən özündən əvvəlki Qurtuluş savaşı ilə bağlı yazılan romanları araşdırmış və müəyyən əskikliklər olduğunu təsbit etmişdir. T.Buğraya görə bir roman yazıçısı bir alim kimi obyektiv olmalıdır. Bunun əksi insan üçün xəyanət sayılır. O, "Küçük ağa" romanını da bu inancına görə yazdığını qeyd edir. (3, s.113 )

T.Buğra romanlarının ana xəttini müstəqillik, milli mübarizə kimi ideyalarının təşkil etməsinin əsas səbəbini, hələ uşaq yaşlarında Akşehirdə şahid olduğu hadisələrə bağlayır və fikirlərini belə açıqlayır:

*"1921-ci ildə üç yaşımda Akşehirdə idim. O, illərdən mənə heç bir zaman yaddaşımdan silinməyəcək görüntülər qalmışdır: evimizin qarşısındakı boş ərazidə gördüyüm əsgərlər, onlara su verməyim, əsgərlərin burada qazan qaynadıb, paltar yumağı, evimizin arxa pəncərəsindən görünən məktəbin həyətindəki xəstəxanada yaralıların inləməsi, atamın gah gəlib, gah getməsi, ətrafdakı insanların müharibə ilə bağlı sözləri və qorxmaları. Bu müharibə idi".* (3, s.113)

Buğra romanın ön sözündə Peyami Safaya "Məqsədim dastan yaratmaq deyil, sadəcə atamın dəftərlərində adlarını gördüyüm İstanbullu Hoca, Topal Gazi, Ali Emminin qəhrəmanlıqlarını romanımda əks etdirməkdir" demişdir. (3, s. 113) Yazıçı "Küçük Ağa Ankarada" və "Firavun imanı" romanlarında da bu mövzunu və tarixi mərhələni davam etdirmişdir.

T.Buğranın 1960-cı illərdə yazdığı "Küçük Ağa" və Küçük Ağa Ankarada" romanlarında tarixə fərqli bir yanaşma görürük. 1963-cü ilə qədər rəsmi tarix heç bir yazıçı tərəfindən araşdırılmamış, Milli Mücadiləyə qarşı olanlar heç bir yazıçı tərəfindən tərəfsiz ələ alınmamışdır. Bu dövrdə rəsmi ifadədən kənarlaşaraq müxalif qüvvələri də dinləyərək, onların fikirlərinin səbəbini aydınlaşdıran, tarixi bu qədər ciddi şəkildə araşdıran yazıçı Tarık Buğra olmuşdur. Yazıçı Qurtuluş Savaşını xalqın gözü ilə anlamağa çalışmış, bununla da Qurtuluş Savaşını romanlarında işıqlandıran K.Tahir və A.İlhandan fərqli bir əsər ortaya qoymuşdur. Yazıçı Milli Mücadilə illərindəki Anadolunu adları üzləri qeyri müəyyən şəxslər simasında deyil, Osmanlıya sadiq İstanbullu Hoca, Er Salih, Reis Bey kimi insanların duyğu və düşüncələri ilə ortaya qoymuşdur. Real tarixə nəzər saldıqda bu adda qəhrəmanların olmadığını bunların sadəcə yazıçı təxəyyülünün məhsulu olduğunu da görmək mümkündür.

Yazıçının fikrincə altı yüz il dimdik var olmuş, şah mədəniyyət qurmuş bir dövlətin insanları qurtuluş üçün bir başqa hakimiyyəti, dövləti bir anda qəbul edə bilməzdi, bir tarixi yenisi ilə əvəz etmək asan deyildi. T.Buğra "Küçük Ağa" romanını da məhz bu fikir ayrılıqlarının olduğu dövrdə yazır. "Küçük Ağa" bu ziddiyətlər üzərinə qurulmuş bir əsərdir. Romanın əsas qəhrəmanlarında olan İstanbullu Hoca əsərin başlarında din adamı və Kuvayi-Milliyəyə qarşı çıxanlardan olmuşdur. Müxalif qüvvələr onu dərhal asılası bir adam kimi görürlər. Lakin yazıçı əsərdə zamanla onun da Kuvayı-Milliyəçilər kimi vətəninə bağlı bir şəxs olduğunu oxuyucuya göstərə bilir.

Roman Milli Mücadilə mövzulu romanlardan fərqli olaraq "Ankara mərkəzli" bir yanaşma ilə yazılan roman olmamışdır. Yazıçı hadisələri Ankarada deyil, Milli Mücadilənin vacib mərkəzlərindən olan, yazıçının doğulub böyüdüyü Anadolunun bir qəsəbəsi olan Akşehir pəncərəsindən baxaraq ələ almışdır. Əsərdə Qurtuluş müharibəsində arxa cəbhədə Kuvayı-Milliyənin necə yaranıb genişləndiyi nəql olunur. Yazıçı hadisələri mərkəzdən deyil, kənardan həm də cəmiyyətin hər təbəqəsindən olan insanların iştirakı ilə təsvir etməyə çalışmışdır.

Əsərin yazılmasında yazıçı "Nutuk", Ali Fuat Cebesoy ve Kazım Karabekir'in xatirələri, qəzet və jurnal materialları, eləcə də atasından qalan üç xatirə dəftərlərindən ibarət materiallardan istifadə etmişdir. (1, s.149.)

Əsər kiçik bir Anadolun qəsəbəsi olan Akşehirin təsviri ilə başlayır. Akşehirdə hər evdə 4 il əvvəl evini, ailəsini, uşağını geridə qoyub, I dünya müharibəsinə gedən əsgərlərin yolunu gözləyənlər vardı. Qadınların evdə, qocaların çayxanalarda toplanıb, gözlədikləri türk məhəlləsində dərin bir səssizlik hökm sürürdü. "Gavur mahallesi" adlandırılan yunanların yaşadığı bu məhəllədə isə abu-hava tamam başqaydı. Sanki dərin hüznə qərq olmuş türk məhəlləsindən fərqli olaraq, buradakı evlərin damları narıncı rəngə boyadılmış, Minasın, Yorgonun meyxanalarından ətrafa musiqi, qəhqəhə səsləri yayılırdı. Bu səslər isə sanki qaranlığa qərq olmuş müsəlman məhəlləsində yaşayan türkləri hürküdürdü.

Akşehirin romanda ən incə ayrıntısına qədər təsvir olunmasının əsas səbəblərindən biri T.Buğranın buralı olması, ilk və orta təhsilini burda alması və əvvəldə də qeyd etdiyim kimi hələ 3 yaşında burada şahid olduğu hadisələrdir. Göründüyü kimi romanın əsasını yazıçının uşaqlıq illərində Milli Mücadilənin acılı günlərində şahid olduğu hadisələrin izləri təşkil edir.

### *"Küçük Ağa" romanında "Çolak Saleh" obrazı*

Romanın əsas qəhrəmanlarından biri Hələbdə Kutul Əmmarə cəbhəsində döyüşüb, yaralı geri qayıdan Saleh obrazıdır. Saleh əsərdə Osmanlı imperiyasının girdiyi son döyüşdən geriyə qalan Anadolu əsgərini təmsil edir. O, Osmanlının böyük ümidlərlə qatıldığı I Dünya Müharibəsindən bitmiş, sağ qolunu itirmiş, üzünün sağ tərəfi də tanınmaz hala gəlmiş, çökmüş halda geri qayıdır. Yazıçı Osmanlının hökmranlığının artıq zəifləyib, yox olma təhlükəsi altında olmasını, sağ qolunu və üzünü itirmiş bir əsgərlə müqayisə edir.

T.Buğra yazılarının birində Çolaq Salehi Küçük Ağadan çox sevdiyini dilə gətirir. O, Salehi çökmüş, Osmanlının siması kimi təsvir edir. Çolaq Salehin onun həyatında xüsusi yeri vardır. Çolaq Saleh obrazı Akşehirdə atasının dostu olan "Topal Gazi" deyilən qəhrəmanın prototipidir. Yazıçının xatirələrindən də aydın olur ki, bu şəxs onun atasının yanına gəlib, oturar, iki dost içki içib, dərdləşərdilər. O, xatirələrində bu haqda belə yazır:

*"Bəzi axşamlar atamı otağında "Topal Gazi" deyilən bir kişiylə qədəh toqquşduran görürdüm. Bu da mənim qüruruma toxunurdu. Atam sayılıb seçilən böyük adam idi, bu isə pis geyimli töküntünün biri. Qazidən kimə nə? Qazi sözünü yalnız Mustafa Kamal Paşaya yaraşdırmaq mümkündür. Qısacası atamın onunla dostluğu qüruruma toxunurdu və bir gün buna atama söylədim. Elə həmin anda atam mənə bir sillə vurdu və səsi qulaqlarında cingildədi. Sən onun kim olduğunu bilirsən? Qısaca axşam evə gələndən sonra onun tarixçəsini mənə danışdı. "Topal Gazi"nin vətəni uğrunda bu hala düşdüyünü anladım".* (3, s. 113-114)

Müharibədən həyatı tamam puç olmuş vəziyyətdə qayıdan Salehi uşaqlıq dostu Niko qarşılayır. Niko artıq əvvəlki deyildi, uşaqlıqda ondan güclü olan Salehi, yeni həyatında dəstəkləmiş kimi

görünsə də, o, indi Salehi psixoloji olaraq əzməyə çalışırdı. Saleh isə artıq Nikonun türklərlə yunanları eyni görmədiyini onun nitqindəki “sizinkilər”, “bizimkilər” sözündən hiss etmişdir.

Üzünün tanınmaz hala düşməsi, sağ qolunun itirməsindən sonra sevdiyi qızla evlənmə xəyallarını da puç edir. Salehin bu fədakarlığını qəhrəmanlıq kimi qiymətləndirən birilərinin olmaması onu daha da kədərləndirir. Bu müharibədə məğlubiyyətin nə qədər acı bir şey olduğunun Akşehirə gələndən sonra başa düşür. Hətta Ali Emminin ona tez-tez söylədiyi sözlər də bunu təsdiq edir:

*“Böyük Osmanlı sultanlığı səndən betər oldu”.* (4, s. 395)

Milli Mücadilə dövrü romanlarında eləcə də “Küçük Ağa” romanında türklərlə bərabər, yunan, erməni, yəhudi kimi milli azlıqlardan da bəhs olunur. Türk dilində “öteki” adlandırılan bu milli azlıqlar Osmanlı dövlətinin xüsusi təbəəsi olaraq sosial həyatlarını tam rahat şəraitdə yaşayırdılar. Hətta onlar müharibəyə belə getmirdilər. Uzun illər Osmanlının təbəəsində yaşayan yunan və ermənilər də yaranmış vəziyyətdən istifadə edərək türklərə qarşı cəbhə almışdırlar.

İttifaq dövlətlərinin Dolmabaxça önündə yerləşməsini güc və dəstək kimi qəbul edərək bunu özləri üçün avantaja çevirmişlər. Yunanlar işğalçıların dəstəyinə güvənərək əsrlərdir bir torpaqda yaşadıqları, heç bir yad münasibət görmədikləri türklərə qarşı düşmən mövqeyinə keçirlər. Bütün bu sadalananları “Küçük Ağa” romanındakı Niko obrazının timsalında görmək mümkündür. Uşaqlıqdan Niko ilə Saleh bir yerdə böyümüş, hətta Nikoya “Salehin Nikosu” deyə səslənmişlər. İndi isə Salehə “Nikonun Salehi” deyirlər. Özünü dəyərsiz bilən Saleh yunanların meyxanasında içki içib, əylənməklə gününü keçirir. Salehin yunanların yanında olması isə akşehirlilərin qəzəbinə səbəb olurdu.

Yunanların xəyanətinə ən çox təəccüblənən isə Çolaq Saleh idi. O yaxın dostu Nikonun son zamanlarda qəribə davranışlarına bir məna verə bilmirdi sadəcə onlara hirslənməklə kifayətlənirdi. O, hətta cəbhədə olarkən yunanlarla türklər arasında bir münaqişənin olub olmaması barədə soruşmuşdu, Niko kiçik anlaşılmazlıqların olduğunu bunlara əhəmiyyət vermədiyini bildirmişdir. Halbuki Akşehirdə və bütün Anadoluda vəziyyət artıq dəyişmişdi. Bu suallara cavab tapa bilməsə də, o müəyyən şeyləri təhlil edə bilirdi. Minlərcə Saleh kimilər cəbhədə yaralanıb, ölərkən Niko kimi yunanlar isə tacirlərə çevrilmişdirlər. İllərdir davam edən bu müharibələr bir yandan da, Niko kimi ermənilərin, yunanların yaşaması üçün idi. Amma Niko kimi nankorlar bunu inkar edirdilər.

Bir gün Salehin yunanların türklərə qarşı keçirdikləri gizli iclasda eşitdikləri onu dərindən sarsıdır, onların əsl niyyətlərini anlayır və onlardan uzaqlaşır. Bu hadisə sanki onun yenidən doğuşu olur, o sanki vətəninin, millətinin işğala məruz qaldığını yeni anlayır. Vətən yolunda çox şeyini qurban verən Saleh şahid olduğu hadisələrə biganə qala bilməzdi, o, yenidən ayağa qalxıb, vətənin müdafiəsinə qatılır. İlk olaraq içkini atır, bir müddət hər kəsdən və hər şeydən uzaqlaşaraq sol eli ilə atış təlimlərinə başlayır. Artıq Salehin özünə güvəni yaranmış və o kuvvacıların sırasına keçərək dəstə başçısı “Çolaq Saleh” olmuşdur. Bunu ilk eşidən Ali Emmi ona artıq “pis çolak” deyil, “oğlum” deyə səslənir. ( 4, s. 395)

Salehin Nikonun xəyanətini öyrənməsi sanki onun yenidən doğuşu olur. Romanın əvvəlində çökmüş Osmanlının siması olaraq təsvir olunmuş, bütün ümidlərini itirmiş Saleh artıq bir dəyişim dövrünə qədəm qoyur. O vətənin azadlığı uğrunda yenidən ayağa qalxaraq daxili və xarici düşmənlərlə mübarizəyə başlayır. Salehin tək istəyi isə vətənin işğalçı qüvvələrdən azad edilməsi və Niko kimi xəyanətkarlarla hesablaşmaq olur. O, bir müddət hər kəsdən uzaq tənhaya çəkilərək tək ali ilə atış təlimlərinə başlayır. Artıq Saleh bu gedişata biganə qala bilmirdi. Ona görə də özünə dəstə düzəldib vətənin müdafiəsinə qalxır. Artıq onu Çolak Saleh deyil, Çeteci Saleh (dəstə başçısı Saleh) deyə çağırırdılar. Onun həm də İstanbullu Hocanın Kuvvacıların sırasına keçməsində xüsusi rolu olmuşdur.

***“Küçük Ağa” romanında “İstanbullu Hoca” obrazı***

Romanın bir başqa qəhrəmanı isə Osmanlının gücünü təmsil edən əsl adı Məhməd Rəşid olan İstanbullu Hocadır. Onun bura göndərilməsində əsas məqsəd xalqın İstanbul hökuməti və saraya bağlı qalmasını təmin etmək idi. Əsərdə İstanbullu Hoca Osmanlı imperiyasının simvolu olaraq yer

alır. İstanbul hökuməti dövlətinə bağlı və sadiq olan Hoca sayəsində akşəhərlilərin də İstanbul hökumətinə qarşı olan şübhələrini aradan qaldıracağına inanırdı.

O, Osmanlı hökumətinə bağlı olduğu kimi Akşehir xalqını da dövlətə bağlı qalmağa çağırır. İstanbullu Hoca nəinki xalqın, hətta qəsəbənin tanınmış şəxslərinin də rəğbətini qazanmış olsa da, doğru yolda olmaması xəbərdarlıqlarına məhəl qoymurdu. Doktor Heydər bəyin bacısı ilə evlənməsi onun Akşehirdə gücünə güc qatır. Doktor Heydər isə onun Milli Mücadiləyə qatılmasının tərəfdaşlarına faydasının nə qədər böyük olacağını bilirdi.

Yüz illərdir padşah və xəlifəyə bağlı olan türk milləti qurtuluşun İstanbul hökumətindən olacağına əmin deyildi. Böyük tərəddüd içində olan xalqın bu narahatlığı İstanbullu Hocaya da sirayət edir. Artıq onda da hökumətə qarşı müəyyən şübhələr baş qaldırmış olur. Hətta bir gün məsciddə verdiyi vaazdan (moizədən?) sonra qəsəbənin ziyalılarından olan Doktor Haydar bəylə olan mübahisəsi onu bir daha düşünməyə vadar edir və bu da “Küçük Ağa”nın doğuşuna vəsilə olur.

Digər tərəfdən isə istanbullu Hocanın yolundan dönməyəcəyini bilən Kuvayı-Milliyəçilər onun haqqında ölüm qərarı çıxarır. Bu qərardan sonra o həyat yoldaşını və doğacaq uşağını qoyub qaçmağa məcbur olur. O, Çakırsaraylının yanına sığınır. Bundan sonra İstanbullu Hocanın daxili aləmindən başqa hər şeyi dəyişir. Ilk olaraq xarici görünüşünü dəyişən hoca ona din adamı olmasını işarə edən saqqalını kəsib, belinə silah alaraq Kuvayı-Milliyə tərəfdarlarına qoşulur. Əvvəllər padşah tərəfdarı olan İstanbullu Hoca artıq dəstə başçısı Küçük Ağaya çevrilir. O, Salehlə qüvvələrini birləşdirərək vətəni, milləti uğrunda milli mübarizəyə başlayır. Saleh isə İstanbullu Hocanın ölüm xəbərini Akşehirə çatdırır. Küçük Ağanın namı gündən-günə artaraq Ankaraya qədər gedib çıxır.

İstanbullu Hoca yazıçının Akşehirdə gördüyü, eşitdiyi və müşahidələri nəticəsində yaratdığı bir obrazdır. Digər Qurtuluş savaşı romanlarından fərqli olaraq “Küçük ağa” romanında din xadimləri mənfi obraz kimi təqdim olunmamışdır.

Milli Mücadilə sadəcə əsgərlərin mübarizəsi deyildi. Bu müqəddəs mübarizəyə Türk millətinin hər təbəqəsindən olan insanların dəstək olduğunu romanda görmək mümkündür. Yazıçı xalqın fikirlərini qəsəbənin ağsaqqallarından olan Ali Emminin timsalında oxuyucuya təqdim edir. Sadə xalqı təmsil edən Ali Emmi görüb keçirmiş, ağıllı, doğru qərar verən biri olaraq, Milli Mücadilənin ən çətin günlərində türklərə səbrli, mətanəli olmağı məsləhət görür.

**Nəticə**

Türk ədəbiyyatında tarixi romanın ən gözəl örnəklərinin müəllifi kimi tanınan, vətən və millət aşiqi olan Tarık Buğranın “Küçük Ağa” romanı Milli Mücadilə dövrü hadisələrinin əks olunduğu romanlar arasında özünəməxsusluğu ilə seçilir. İlk dəfə olaraq oxucu Tarık Buğranın romanında Milli Mücadiləyə fərqli yöndən yanaşma görür. Digər qurtuluş savaşı romanlarından fərqli olaraq burada məsələlərə dövlətin rəsmi prizmasından deyil, sırf insan və millət yönündən baxılmış, qələmə alınmışdır.

Türklərin siyasi tarixində Milli Mücadilə xüsusi yerə sahibdir. Bu dönəm Osmanlı kimi şah dövlətin, mədəniyyətin çöküşü, ondan sonra isə yeni bir dövlətin doğuşu kimi ziddiyyətli bir dövrü əhatə edir. T.Buğra “Küçük Ağa” romanını bu ziddiyyətlər üzərində qurmuşdur. Burada yazıçı iki yol arasında qalan türk millətindən bəhs edir. T.Buğra Qurtuluş savaşını türk insanını qələbəyə aparan yolda dəyərləndirir, mühakimə edir. Romanın əsas fikri, millətin və dövlətin müstəqilliyinin Ankara hökumətinin idarəçiliyinə bağlı olmasıdır.

Romanın əvvəllərində padşah hökumətinə bağlı İstanbullu Hoca olaraq qarşımıza çıxan Məhməd Rəşid müəyyən müddət sonra mənəvi dəyişim keçirərək Küçük Ağa olaraq vətənin azadlığı, müstəqilliyi uğrunda mübarizəyə qoşulur. İstanbullu Hoca Küçük Ağalığa gedən yolda Çolaq Saleh kimi çox ağrılı, acılı günlər keçirir. Çolak Saleh isə əsərin əvvəlində müharibədən bitkin vəziyyətdə geri dönən çökmüş Osmanlının siması olaraq təsvir olunmuşdur. Keçirdiyi ağrılı, acılı günlər, şahid olduğu hadisələr onu baş verənlərə qarşı biganə qalmamağa məcbur edir. O, vətəninin dar günüdə xarici və daxili düşmənlərə qarşı mübarizəyə qoşularaq Çolak Salehin necə Dəstə başçısı Salehə çevrildiyini oxuyucuya göstərir. Burada yazıçı obrazların mənəvi dəyişikliyi timsalında Osmanlının

da dəyişikliyini göstərmək istəmişdir. İstanbullu Hocanın dəyişimindən Küçük Ağa doğulmuş, Osmanlıdan isə Türkiyə Cümhuriyyəti doğulmuşdur. Yazıçı Çolaq Saleh və İstanbullu Hocanı vətən və millət yolunda həyatlarını qurban verən əsl türk oğlu kimi oxuyucusuna təqdim edir. Bu fədakarlıqların hamısı böyük qurtuluşu, möcüzə qələbəni türk insanına, millətinə bəxş etmək üçün idi.

## ƏDƏBİYYAT


1. Atik, Şerefnur (2013) "Tarık Buğra'nın "Küçük Ağa" ve Samim Kocagöz'ün "Kalpaklılar" Adlı Romanları Üzerine Karşılaştırmalı Bir İnceleme", Ankara, 21. Yüzyılda Eğitim ve Toplum Cild 2 sayı 6 qış.
2. Buğra, Tarık, (2008). "Küçük Ağa", İstanbul, İletişim Yayınları. 12. basım.
3. Buğra, Tarık, (1976). "Kurtuluş Savaşı: Niçin ve Nasıl?", Türk dili dergisi, Türk Romanında Kurtuluş Savaşı Özel Sayısı. Səh .298.
4. Kırılmış, İlknur Tatar (2013). "Tarihi Romanlarda değişen Bakış Açısı, Küçük Ağa ve Küçük Ağa Ankarada", Uluslararası Sosyal Araştırmalar Dergisi. Cilt:6 Sayı:28
5. Kaplan, Mehmet (1978) "Edebiyyatımızın içinden" Dergah yayınları
6. Sevinç, Canan (2009) "Atatürk dönemi (1923-1938) Türk Romanında Milli Mücadele", International Periodical For the Languages, Literature and History of Turkish or Turkic cilt 4 /1-II s. 2012-2040



## *РЕЗЮМЕ*

*Арзу Дадашева*

***Нравственная эволюция героев романа "Маленький господин" Тарика Бугры***

***Ключевые слова:*** *Тарик Бугра, турок, литература, история, роман*

Тарик Бугра - один из известных писателей турецкой литературы республиканского периода. Т.Бугра - один из писателей, отражающий в своих произведениях важные события в истории Турции. Среди романов о событиях национальной борьбы в турецкой литературе не следует забывать роман Бугры "Маленький начальник". Книга, вышедшая в свет в 1963 году, описывает события, произошедшие в Акшахаре, городе в Анатолии, где писатель родился и вырос. Работа рассказывает о том, как Куваййы-Милли был сформирован и расширен в тылу во время войны за независимость.

Цель ее - изучить персонажей Ходжи из Стамбула и Чолака Салеха, главных героев романа "Маленький начальник", а также привлечь внимание к их духовным изменениям после тех событий. Для достижения этой цели был использован роман Бугры "Маленький начальник", а также статьи и материалы, написанные об этом романе.

После краткого описания места и творчества Бугры в турецкой литературе обсуждаются взгляды автора на роман. На следующих этапах обсуждалось моральное изменение образов Колака Салеха и Ходжи из Стамбула.

***SUMMARY***

***Arzu Dadashova***

***Moral Evolution of the Characters in Tariq Bugra's Novel "Kuchuk aga"***

***Keywords:*** *Tariq Bugra, Turk, literature, history, novel,*


Tariq Bugra is one of the well-known writers of Turkish literature of the Republican period. T. Bugra is one of the writers who transmits important events of the history of Turkey in his works. Bugra's novel "Kuchuk aga" should not be left out when the novels about the events of the National Struggle period in Turkish literature are concerned. The book, published in 1963, deals with the events that took place in Akshahar, a town in Anatolia where the writer was born and raised. The novel tells the story of how Kuvayi-Milliye was formed and expanded in the rear during the War of liberation.

The purpose of this writing is to examine the characters İstanbullu Hoca and Colak Saleh, the main characters of the "Kuchuk aga", and to draw attention to their spiritual change after those events. To achieve this purpose the author grounds on T. Bugra's novel "Kuchuk aga" as well as articles and materials written about this novel.

After a brief account of Bugra's place and work in Turkish literature, the author's thoughts on the novel are being discussed. The following stages, however, mainly deals with the moral evolution ofcharacters, namely, Colak Saleh and Istanbullu Hoca.